## ABŞERONUN BAĞ EVLƏRİNİN BƏDİİ-MEMARLIQ HƏLLİNƏ KÜLƏK VƏ GÜNƏŞİN TƏSİR DAİRƏSİ

**Əliyev İlqar Oruc oğlu**- baş müəllim, Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrası, AzMİU, i.aliyev@architecture.az

**Annotasiya.** Abşeronun sahilləri qədim zamanlardan istirahət yerləri kimi istifadə edilirdi. Bu ərazilərdə salınan bağ evləri fərdi xarakter daşısa da XIX əsrdən başlayaraq Abşeronda neft emalı ilə bağlı Bakının imkanlı adamları özləri üçün yay iqamətgahları tikdirir və bu imarətlərin memarlıq həlli və abadlığı insanlarda böyük maraq oyadırdı. Bu gündə Pirşağı, Buzovna, Mərdəkan kimi qəsəbələrdə belə bağların izləri qalmış və artıq muzey, dendropark kimi yeni funksiya tapmışdı. Məqalədə daha təfsilatlı olaraq Abşeronun şimal və cənub sahillərində artıq kütləvi bağçılıq təsərrüfatları haqqında geniş məlumatlar verilmiş və onların memarlıq-planlaşma xüsusiyyətinə külək və günəşin təsir dairəsi göstərilmişdir.
**Açar sözlər:** Abşeron, bağ evləri, bədii-memarlıq həllər, külək və günəşin təsiri, istirahət yerləri

## INFLUENCE OF WIND AND SUN ON THE ARCHITECTURAL AND ART SOLUTION OF HOLIDAY HOUSES OF ABSHERON

**Aliyev Ilgar Oruj**- senior lecturer, department of Architectural design and urban planning, AzUAC, i.aliyev@architecture.az

**Abstract.** Absheron coast was used as a place of rest from ancient times. Houses built in these areas have individual character, but in the 19th century since oil refining in Absheron, the Baku oil tycoons began to build courtyards with luxurious landscaping improvement which were of great interest to people. Today, settlements such as Pirshagi, Buzovna, Mardakan have been traces of such gardens and have already found new functions such as museums and dendrology parks.The article deals with information on the massive horticultural farms in northern and southern coasts of Absheron as well as their impact on the architectural and planning nature of the wind and sun.
**Keywords:** Absheron, holiday houses, art and architectural solutions, wind and sun exposure, recreation places

Abşeronun şimal dəniz sahili həmişə əhali arasında istirahət yeri kimi tanınmışdır. Onun təbii-iqlim şəraiti (güclü şimal küləkləri, quru havası və isti günəş şüaları) ilə bol olan çimərlikləri yarımadanın şimal kəndlərin də (Mərdəkan, Buzovna, Nardaran, Pirşağı) fəaliyyətinə öz təsirini göstərmişdi [1]. XIX əsrin axırlarına qədər bu zonanın memarlıq-planlaşma təşkili daha çox pərəkəndə aparılırdı, XIX əsrin 90-cı illərindən başlayaraq Bakıda gedən iri miqyaslı tikinti prosesi və neft emalı ilə bağlı şəhərsalma quruculuğu Abşeronun şimal bölgəsində bir çox bağ imarətlərinin tikintisinə izdivac verdi. Belə ki, Bakının neft maqnatları öz yay istirahətləri üçün Abşeronun ən münbit mühiti olan Mərdəkanı seçib orada bir sıra bağ evləri saldılar. Bunlar daha düzünü desək, çox kiçik saray komplekslərini xatırladırdı, çünki ərazi tərkiblərində iri həcmli binadan başqa çox yaxşı abadlaşdırılmış park, su ambarları, hovuzlar, bir sıra təsərrüfat tikililərini də yerləşdirirdi.

Bakının baş memarlarından birinin təklifi ilə (İ.V.Qoslanovski) bu zonada iri bir bağçılıq məktəbi açıldı və onun tikintisinə müxtəlif ölkələrdən gətirilən materiallar (ağac, kol, daşlar və s.) hesabına çox gözəl bir landşaft mühitini yaratmaq mümkün oldu. Belə yanaşma birdə təsdiq etdi ki, yarımsəhralı Abşeron torpaqlarında da çox gözəl istirahət mühiti yaratmaq mümkündür [3]. Müəyyən zamandan sonra Mərdəkanda qumluqları və dəvə kollarının əvəzinə insanlar öz hovuzları, fontanları, füsunkar memarlıq pavilyonları ilə valeh edən bağ imarətləri saldılar. Yerli dövlətlilər tikintiyə böyük vəsait qoymaqla Qara Dəniz sahilində olan imarət komplekslərindən heç də geri

qalmayan ekzotik flora və faunası olan bağlar saldılar. Bunlara aşağıdakıları aid etmək olar:

1. Əmir Həmzənin villası (indi 6 nömrəli uşaq evi);
2. Dörkünclü qalanın yaxınlığında Məmməd Sadığın villası;
3. Hacı Əhməd Əlinin villası (bu gün 91 nömrəli uşaq bağçası);
4. Qasımbəy Hacinskinin villası (hal hazırda "Qaranquş" sanatoriyası);
5. Hacı Zeynalabidin Tağıyevin villası (indiki sanatoriya);
6. Həmid bəyin villası;
7. Həsən Ağanın imarət evi;
8. Xalıq bəyin imarəti;
9. Əbdül Həmidin imarət evi – villası;
10. Hacı Abbasqulu Rzayevin villası (hal hazırda uşaq evi);
11. Hacı Əli-Abbas Tağıyevin villası (indi uşaq xəstəxanası);
12. Ağa Rəhim bəyin villası;
13. Həbib bəy Mahmudbəyevin villası;
14. Əliağanın villası (indiki 34 nömrəli uşaq evi);
15. Ramanalı Məlikovun villası (hal hazırda vərəm xəstəxanası);
16. Əziz bəy Aşurbəylinin villası (bu gün xəstəxana);
17. İsa bəy Hacinskinin villası (hal hazırda müalicə komissiyasının sanatoriyası);
18. Murtuza Muxatrovun villası (indiki botanika bağı);
19. Şəmsi Əsədullayev villası (indiki sanatoriya);
20. Ağa Musa Nağıyevin villası (hal hazırda sanatoriya);

Beləliklə, Mərdəkandan başlayan bu təcrübə Abşeronun digər kəndlərinin tikintisində də öz tətbiqini tapdı. Demək lazımdır ki, bu təcrübə Abşeronun digər kəndlərində tikilən evlərindən öz dəbdəbəli görkəmi, ərazi tutumu, memarlıq obrazları ilə fərqlənirdi. Çünki Buzovna, Şüvəlan və Mərdəkanın bağlarını xaricdən dəvət olunan memarlar fərdi layihələr üzrə aparırdılar. Orta səviyyədə imkanları olan adamların bağları daha sadə, kiçik ərazili və yaşıllıqları əsasən yerli flora assortimentindən hazırlandığı halda, neft maqnatlarının villa tipli bağlarının əkintiləri xarici ölkələrin ekzotik bitkiləri hesabına başa gəlirdi. Abşeronda ilkin olaraq Mərdəkan evləri digərlərinə görə öz sıx yaşıllıqları və mədəniyyətləşdirilmiş landşaft memarlığı ilə fərqlənirdi. Qeyd edək ki, isti iqlim şəraitində güclü Xəzri küləklərinin təsiri burada əraziyə nisbətən yan keçdiyindən yumşalır və toz-torpağı havaya sovurmurdu [2].

Bu mənada yarımadanın ekoloji durumuna müsbət təsir edən geniş vüsət tapmış şam ağaclarının yerli şəraitə çox yaxşı uyğunlaşması diqqətə layiqdir. Bu tip əkintilər həmişə yaşıl, toz-torpağın qarşısını yaxşı alırdı. Buna misal, Hacinskilərin 1912-ci ildə tikilən bağ imarəti ola bilər. Onun memarlıq həlli bütövlükdə Abşeron küləklərindən və qızmar günəş şüalarından qorunmağa imkan verirdi. İki mərtəbəli binanın alt mərtəbəsi dərin kölgəli galereya ilə təchiz olunduğu halda, üst mərtəbəsinin həcmi-məkan həlli də çox maraqlıdır. Ikinci mərtəbədəki sütunlu ensiz açıq eyvanın olmasıyla arxadakı geniş şüşəbəndin varlığı bu həcmə yüngüllük verməklə yanaşı onun bol işıqlanmasını mümkün edir. Bina qarşısında olan və ona bilavasitə toxunan kiçik gözəl gölü xatırladan hovuz isə suda bina obrazının əks olunması ilə təkrarsız bir təəssürat-mənzərə yaradır. Qeyd edək ki, Abşeronda xalq yaşayış evlərində külək və günəşin mənfi təsirini azaldan vasitələrdən çox bacarıqla istifadə olunub və "birun" "əndurun" kimi istiqamətlər öz pozitiv təsirini qabarıq formada nümayiş etdirirdi [3].

Bildirmək istərdik ki, Abşeronda, ilk növbədə neft sənayesində işləyən fəhlələr üçün qəsəbələr salınmışdı. Onlara yaxın olan yollar Mərdəkana və Buzovnaya gedən yollarla üst-üstə düşür, bu da bəzi fəsadlar yaradırdı. Bu qəsəbələrdə mülkadarları tikilən mülklərin sahibkarlığı yollardan və ətraf abadlıqdan çox şəxsi bağ sahələrinin landşaft həllinə maraq göstərirdi. Lakin, sonralar Abşeron sahillərin və kütləvi çimərliklər miqyasında öz yeni həllini tapdı, çünki Bakıdan gələn "elektriçka" (elektrik dəmir yolu xətti) relsləri bərkidildi, nəqliyyat avtomobil yolları da enniləşdirildi.

Bu sahil kəndlər sırasında Buzovnanın da adını çəkmək düzgün olardı. Bu kənd öz meyvəli bağları, qızıl qumlu geniş çimərlikləri ilə hələ qədim zamanlardan yerli əhali tərəfindən çox sevilirdi. Buna səbəb həm də Bakıdan Buzovnaya gedən yolun qəsəbəyə yaxın olması idi. Digər tərəfdən Mərdəkan və Şuvəlan əsas magistraldan aralı olması səbəbindən onların bağ evlərinin istiqaməti əsasən dənizə yönəldilmiş idi. Buzovna bağlarının çoxu yol kənarında olsa da, onların açıq və şüşəbəndli eyvanları ümumilikdə binalara yüngüllük verir. Buna misal Şəmsi Əsədullayevin imarət evidir ki, onun tağlı qalereası baş fasada zənginlik gətirir. Bina 1897-1901-ci illər arası tikilmişdir [4].

Abşeronun bağ evləri sırasında neft maqnatı Murtuza Muxtarovun da imarət evini göstərmək düzgün olardı. Bu gün o Azərbaycanın dendroloji parkı kimi fəaliyyət göstərir. O, öz əraziliyinə görə digərlərindən çox fərqlənir. İlk növbədə onun böyük ərazi tutumu (8 ha) müqabilində ərazisində iri sonra süni yaradılmış gölü və iri dördbucaqlı hovuzu, ərazini hidrotexniki avadanlıqları çox maraqlıdır və indi də insanları valeh edir. 40 m yerin dərinliyindən çıxardılan su ambarlara yığılaraq əraziyə səpələnmişdir və böyük bir arx şəbəkəsi təşkil edir. Bu kompleksin müsbət cəhətindən biri də onun gözəl yaşıllaşdırılmasıdır ki, bunlar bağ ərazisini güclü şimal küləyinin mənfi təsirindən qoruyur. Digər tərəfdən bu yaşıllıqların müxtəlif ölkələrdən gətirilən münbit torpaqlar üzərində salınmışdı. Belə ki, kölgəliklər salınan yaşıllıqların, yəni kol və ağaclar sayəsində yaradıla bilmişdi. Ümumillikdə bu yaşıllıqlar günəş şüalarının qarşısını alır, lakin onların yalnız bir hissəsi bilavasitə binaya yaxındır.

Bu binanın əsas ağ daşdan hörülmüş həcmi şərq memarlıq üslubunu əks etdirirdi. Həcmin hündür kürsü üzərində qaldırılması onun dənizə açılan gözəl mənzərənin açılmasına imkan verir. Beləliklə bu bağ evi bir sıra məhdudluqlara baxmayaraq (yəni qrunt sularının dərin təbəqələrdə yerləşməsi, güclü şimal küləyinin mənfi təsiri və s.) özüdə şərq memarlığının landşaft təşkilinin ən gözəl nümunəsini nümayiş etdirdiyindən və ondan sonra tikilən bağ evlərinə o, örnək olmuşdur. Bu mənada Hacı Zeynəlabdin Tağıyevin imarət bağ evi öz aydın planlaşma sxeminə, şam ağaclarının nizamlı salınan əkintiləri hesabına çox mənzərələri bir landşaft məkanı yaratmışdır. Şəmsi Əsədullayevin bağ evi isə ənənələrə söykənən təmtəraqlı obrazına magistral boyu 400 yaxın uzanan hasarına və monumental darvaza qapılarına görə fərqlənir [5].

Məhz Şəmsi Əsədullayevin bağ imarətində Abşeronun külək və günəş şüalarından qorunma vasitələri öz kamil həllini tapmışdı. Bu bağ evinin digər müsbət cəhətdən biri də binanın relyef üzərindən qaldırılması və geniş eyvan hesabına birinci mərtəbənin kölgəli olmasıdır. Digər fərqlilik isə burada həm də iri su hovuzunun ikinci mərtəbəyə qaldırılmasıdır. Bu bağın fərqləndirici cəhətləri sırasına ərazidə bir-birinə yaxın iki oxşar olmayan korpusların verilməsidir. Məsələn, üç mərtəbəli korpusun parka tərəf yönəldiyi halda, yaxında olan ikimərtəbəli ikinci korpus dənizə yönəldiyindən gözəl dəniz panoram yaradır. Lakin hər birinin landşaft memarlığı öz gözəl təəssürat yaradan xüsusi obrazı ilə fərqlənir.

**Nəticə.** Ümumiyyətlə, pilləvari terasların olması Abşeron villalarının ən səciyyəvi xarakteridir. Bu üsul bir tərəfdən baş tikilinin toz-torpaqlı küləklərdən qoruması məqsədi daşıyır. Digər tərəfdən su və yaşıllıq komponentləri onları əhatə olunmuş yaşıllıqlar arasında qəsrləri xatırladırdı. Beləliklə, imarət evlərin memarlıq-planlaşma və kompozisiya baxımından özünəməxsus tərtibatı şübhəsiz ki, Azərbaycanda XIX əsrin sonları və XX əsrin əvvələri baş vermiş bir memarlıq sıçrayışı idi. Eyni zamanda onları Abşeronun landşaft memarlığının təməli də saymaq olar. Məsələn, neft maqnatı Hacıyevin bağ evinin plan sxemi əsasən xətti olduğundan onun zamana uyğun olaraq və modernə keçən üslubu özünü forma fərqliliyinin gözəlliyində göstərir. Binanın şimala yönüm alması ona dəniz panoramı verir. Bu imarətin ərazisi sadə olsa da, memarlıq həlli çox incə və zəngindir. Beləliklə Abşeronun yarımsəhra torpaqlarında və su qıtlığı şəraitində çox möhtəşəm görünüşlü, sıx yaşıllıqlı terrasları və fontanlı hovuzlarla verilməsi onları Qara dəniz sahilində salınmış istirahət imarətləri ilə müqaisə etməyə imkan verir. Buna sübüt bu gündə Abşeronun təbii iqlim şəraitindən bacarıqla istifadə etməklə yeni istirahət bağlarının yaradılmasıdır.

**Ədəbiyyat**

1. Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. AMEA-nın nəşriyyatı, 1964, 2001
2. Əlizadə Q.M. Azərbaycanın xalq memarlığı və onun proqressiv ənənələri. Bakı, AEA-nın nəşriyyatı, 1963
3. İlyuşin V.V. Abşeronun kurort sərvəti. "Qırmızı Bakı" jurnalı, №10, 1925
4. Əbdülrəhimov R.H., Abdullayeva N.C. Erkən kapitalizm dövrünün memarlığı (XIX-XX əsrin əvvələri). Bakı, 2013
5. Фатуллаев-Фигаров Ш. Зодчество Абшерона. Баку, 2003

**References**

1. Ashurbeyli S.B. Baki sheherinin tarixi. AMEA-nin neshriyyati, 1964, 2001
2. Elizade Q.M. Azerbayjanin xalq memarligi ve onun proqressiv eneneleri. Baki, AEA-nin neshriyyati, 1963
3. İlyushin V.V. Absheronun kurort serveti. "Qirmizi Baki" jurnali, №10, 1925
4. Ebdulrehimov R.H., Abdullayeva N.J. Erken kapitalizm dovrunun memarligi (XIX-XX esrin evveleri). Baki, 2013
5. Fatullaev-Figarov Sh. Zodchestvo Absherona. Baku, 2003

Redaksiyaya daxil olma/Received 04.01.2019
Çapa qəbul olunma/Accepted for publication 04.02.2019